Şübhəsiz ki, Allah yaxşılıq və pislikləri yazdıqdan sonra, onları belə açıqladı: Kim bir yaxşılıq etmək istərsə, lakin bunu edə bilməzsə, Allah bunu onun üçün Öz dərgahında bir yaxşılıq kimi yazar. Əgər bir kəs xeyir əməli istəyib onu edərsə, Allah Öz dərgahında həmin şəxs üçün bu yaxşılığı on mislindən yeddi yüz mislinə qədər, hətta daha çox yazar. Əgər insan pis bir əməli etmək istəyər, lakin onu etməkdən əl çəkərsə, Allah bunu onun üçün bir yaxşılıq olaraq yazar, əgər bu pis əməli etmək istəyər və edərsə, Allah sadəcə onun üçün bunu bir günah olaraq yazar

İbn Abbbasdan (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) izzət və cəlal sahibi Rəbbindən belə rəvayat etmişdir: "Şübhəsiz ki, Allah yaxşılıq və pislikləri yazdıqdan sonra, onları belə açıqladı: Kim bir yaxşılıq etmək istərsə, lakin bunu edə bilməzsə, Allah bunu onun üçün Öz dərgahında bir yaxşılıq kimi yazar. Əgər bir kəs xeyir əməli istəyib onu edərsə, Allah Öz dərgahında həmin şəxs üçün bu yaxşılığı on mislindən yeddi yüz mislinə qədər, hətta daha çox yazar. Əgər insan pis bir əməli etmək istəyər, lakin onu etməkdən əl çəkərsə, Allah bunu onun üçün bir yaxşılıq olaraq yazar, əgər bu pis əməli etmək istəyər və edərsə, Allah sadəcə onun üçün bunu bir günah olaraq yazar".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, Allah yaxşılıq və pislikləri öncədən müəyyən etmiş və sonra (yazan) iki mələyə onları necə yazacaqlarını bildirmişdir: Kim xeyir əməli etmək istəyib ona niyyətlənər və ona əzm göstərərsə, bu əməli etməsə belə, ona bir savab yazılar, əgər bu xeyir işi edərsə, ona on mislindən yeddi yüz mislinə, hətta daha çox savab yazılar. Savabdakı bu əlavə - qəlbdəki ixlas və faydalı əməllərin dərəcəsinə və miqdarına və buna bənzər əməllərə görədir. Hər kim də, pis əmələ niyyət edər, ona əzm edər, lakin, Allah üçün onu tərk edərsə, Allah bunu onun üçün bir savab olaraq yazar və əgər məşğul olub səbəblərini yerinə yetirmədiyi üçün bu əməli etməzsə, ona heç bir şey yazılmaz. Aciz olub bu əməli etməyi bacarmazsa, niyyətinə görə yazılar. Əgər pis əməli edərsə, onun üçün bir günah olaraq yazılar.